Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri
Hörmətli Anar Bağırov cənablarına

Şamaxı rayonu Muğanlı kənd sakini Rəsulova Sevda Elçin qızı tərəfindən

TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Anar müəllim,

Mən, Rəsulova Sevda Elçin qızı, uzun və ağır hüquqi proses dövründə mənə göstərilən təmənnasız, peşəkar və insani dəstəyə görə dərin təşəkkürümü bildirmək istəyirəm.

Bu müddət ərzində mənim və ailəmin hüquqlarının qorunmasında fəal iştirak edən, böyük vicdan və məsuliyyətlə yanaşan vəkil Tural Baloğlanovun əvəzsiz xidmətlərini xüsusi qeyd etmək istəyirəm. O, mənim hüquqi biliklərimin az olduğu bir vaxtda yanımda oldu, bütün mərhələlərdə əlimdən tutdu, haqqımın və hüquqlarımın bərpası üçün var gücü ilə çalışdı.

Onun bu çətin dövrdə heç bir təmənna güdmədən mənə göstərdiyi dəstək, təkcə bir vəkil kimi deyil, həm də əsl insan kimi yüksək mənəvi dəyərlərə sahib olduğunu göstərdi. Bu cür vəkillərin Vəkillər Kollegiyası daxilində fəaliyyət göstərməsi həm hüquqi sahəyə, həm də cəmiyyətimizə böyük nüfuz qazandırır.

Sizə – hörmətli Anar müəllimə və rəhbərlik etdiyiniz Vəkillər Kollegiyasına belə dəyərli hüquqşünasları cəmiyyətimizə qazandırdığınız və onların şəffaf, vicdanlı fəaliyyətinə dəstək verdiyiniz üçün minnətdarlığımı bildirirəm.

Bir vətəndaş və ana olaraq, bu təşəkkürü dərin hörmət hissi ilə çatdırıram.

Hörmətlə,
Rəsulova Sevda
01 iyul 2025

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2497
«04» 07 2025 il